**Nigar Arpadarai: Çalışırıq ki, bütün tərəfdaşlar COP29-a öz töhfələrini versinlər**

Yüksək səviyyəli çempion olaraq, bütün tərəfdaşlarla - bələdiyyələr, xeyriyyəçilik təşkilatları, vətəndaş cəmiyyəti ilə əlaqə yaratmağa çalışırıq. Çalışırıq ki, bütün tərəfdaşlar COP29-a öz töhfələrini versinlər.

AZƏRTAC xəbər verir ki, bunu COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai iyulun 19-da COP29 Azərbaycan Sədrliyinin mətbuat konfransında deyib.

"Son aylarda sədrlik olaraq komandamızı formalaşdırdıq. Əməliyyat komandamız bacardığı qədər ən yaxşını etməyə çalışır. Sədrlik olaraq 14 təşəbbüsümüzü irəli sürmüşük. Təşəbbüslər bütün tərəfdaşlarla birgə hazırlanıb", - deyə N.Arpadarai qeyd edib.

**AZƏRTAC**
**2024, 19 iyul**